## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

## ŞƏKİ ŞƏHƏRİNDƏ XALQ ŞAİRİNİN BÜSTÜ



Şəki şəhərində xalq şairi Bəxtiyar Vahabzadənin büstü, 2009-cu il fevralın 19-da Prezident İlham Əliyevin sərəncamına əsasən hazırlanmış və 2010-cu il fevralın 10-da mərkəzi parkda açılmışdır. Büstün açılışı zamanı "Qrand" şadlıq sarayında "Şəkidən dünyaya" adlı tədbir keçirilmiş, müxtəlif ziyalılar və şairin dostları çıxış etmiş, parkda həmin abidənin qarşısında mərasim təşkil olunmuşdur. Simvolik əhəmiyyəti: Bu büst, həm şairin qəlblərdə əziz tutulması, həm də Şəkinin mədəni sərvətlərindən birinə çevrilməsi kimi böyük əhəmiyyət daşıyır. Azərbaycanın ədəbiyyat və incəsənət xadimlərinə göstərilən diqqətin bariz nümunəsidir.

## BƏXTİYAR VAHABZADƏNİN FƏXRİ XİYABANDA QƏBİRÜSTÜ ABİDƏSİ




Bəxtiyar Vahabzadənin Fəxri Xiyabanda 2013-cü ildə qoyulmuş qəbirüstü abidəsi, onun ədəbi irsinə və ictimai xidmətlərinə hörmətin əlamətidir. Abidənin açılışı 2013-cü ildə baş tutub və orada poeziya, ədəbiyyat, ictimai fəaliyyət sahələrində Bəxtiyar Vahabzadənin xidmətləri əks olunur. Bəxtiyar Vahabzadənin abidəsi, onun Azərbaycana verdiyi dəyəri və sənətinə olan hörməti göstərən əhəmiyyətli bir abidədir.

## "ƏBƏDİYAŞAR ƏDİBLƏR" KOMPLEKSİ VƏ BƏXTİYAR VAHABZADƏNİN BÜSTÜ



Bu abidə kompleksi 2018-ci ildə Göyçay şəhərində, Əli Kərim adına park ərazisində yaradılıb. Məqsədi Azərbaycanın ölməz ədiblərinin xatirəsini ehtiramla yad etməkdir.

Kompleksdə 18 ədibin- o cümlədən Bəxtiyar Vahabzadənində  büstləri quraşdırılıb. Digərləri içərisində klassik şəxsiyyətlər: Nizami Gəncəvi, Məhəmməd Füzuli, Hüseyn Cavid və müasirlər: Məmməd Araz, Səməd Vurğun və s. siyahıya daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının nümayəndə heyəti də bu kompleksi ziyarət edərək tanış olmuşdur.

## BƏXTİYAR VAHABZADƏ ADINA SOSİAL ELMLƏR LİTSEYİ






17 Fevral 2009 tarixində Türkiyə Milli Təhsil Nazirliyi tərəfindən Adana Bəxtiyar Vahabzadə Sosial Elmlər Liseyinin açılması qərarı verilmişdir. Azəri şair, yazıçı, filosof və siyasətçi olan Bəxtiyar Vahabzadənin vəfatı ilə Milli Təhsil Nazirliyi (MEB) tərəfindən Azərbaycan ilə dostluğun bir simvolu olaraq məktəbə bu ad verilmiştir. Məktəbin Azərbaycan ilə Qardaş Məktəb Layihəsi təsdiq edilmişdir.Məktəb 2009-2010 Təlim-təhsil ilində Seyhan mahalında Necdət Qəhrəman İbtidai təhsil Məktəbi nəzdində fəaliyyətə başlamışdır. Daha sonra Anadolu Gözəl Sənətlər Litsesinin boşaltdığı və İhsan Sabancı Qız Peşə Litseyinə aid binada 2010-2011 Təhsil-Müəllim ilinın ilk dövründə təhsil vermiş, Fevral 2011 tarixi etibarilə indiki öz binasına daşınmışdır.

**BƏXTİYAR VAHABZADƏNİN EV-MUZEYİ**








Azərbaycanın xalq şairi, dramaturq, ədəbiyyatşünas alim, ictimai xadim Bəxtiyar Vahabzadəyə həsr olunmuş xatirə muzeyinin binası Şəkidə, Bəxtiyar Vahabzadənin vaxtilə yaşadığı, sonradan uşaq bağçası kimi fəaliyyət göstərən evdə yerləşir. Muzey Azərbaycan şairi Bəxtiyar Vahabzadə irsinin dərindən öyrənilməsini həyata keçirən, aidiyyatı materialları toplayan, qoruyan, elmi cəhətdən araşdırılmasını təşkil edən mədəniyyət, elmi-tədqiqat müəssisəsidir.

Muzeyin əsası şairin doğumunun 100 illiyi ilə münasibətilə, Azərbaycan Prezidentinin 27 oktyabr 2015-ci il tarixli sərəncamı ilə qoyulmuşdur. 2017–2018-ci illərdə aparılan bərpa, yenidənqurma və bədii tərtibat işlərindən sonra muzeyin rəsmi açılış mərasimi 31 avqust 2018-ci ildə olmuşdur.

Ev muzeyinin ekspozisiyası 70m2 təşkil edir və 3 otaqdan ibarətdir. Burada həmçinin inzibati və fond otaqları da vardır. Muzeyin ekspozisiyasının əsasını şairin ailəsi tərəfindən təqdim edilmiş sənəd, kitab, əlyazma, foto və arxiv sənədləri, şəxsi əşyalar təşkil edir. Burada ümumilikdə 735 ədəd eksponat ziyarətçilərə nümayiş olunur. Muzey həm yerli əhali, həm də ölkə daxilindən və xaricdən gələn ziyarətçilər üçün əhəmiyyətli mədəniyyət və elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərir

Açılış mərasimində mədəniyyət naziri, yerli rəhbərlik, ictimaiyyət və şairin ailəsi iştirak etmiş, bu təşəbbüsün ölkə üçün əhəmiyyətli olduğu vurğulanmışdır.

## BƏXTİYAR VAHABZADƏ ADINA KÜÇƏ






Bakı şəhərinin Yasamal rayonunda Şəhriyar və Əbdürrəhim bəy Haqverdiyev küçələrinə paralel küçə. Küçə Azərbaycan şairi, dramaturq və ədəbiyyatşünası Bəxtiyar Vahabzadənin adını daşıyır. Küçənin adı 2011-ci ilə qədər Firudin Ağayev olmuşdur. Küçənin uzunluğu 817 mt, eni isə İnşaatçılar prospektindən Hüseyn Cavid prospektinə qədər 10 mt, Hüseyn Cavid prospektindən Mətbuat prospektinə qədər isə 13,4 mt-dir.

## BƏXTİYAR VAHABZADƏ ADINA GƏMİ




“Palmalı” şirkətlər qrupu “Beşiktaş” gəmiqayırma zavodunda sayca 6-cı olan daha bir tanker suya endirilib. Azərbaycanı dünya sularında tanıdacaq növbəti tankerə ölkəmizin görkəmli şairi Bəxtiyar Vahabzadənin adı verilib.

Beynəlxalq tələblərə tam cavab verən yeni RST22M layihəli tankerin uzunluğu 140 m, eni 16 m, hündürlüyü isə 6 metrdir. Gəminin ümumi yükdaşıma qabiliyyəti 7100 tondur. Tanker neft və benzin, o cümlədən neft məhsullarının daşınması üçün nəzərdə tutulub.

Xalq şairinin adını daşıyan gəmini dünya sularına yola salmaq üçün Türkiyəyə gedən şairin xanımı Dilarə Vahabzadə bu hadisədən qürur hissi keçirdiyini söylədi.

## BƏXTİYAR VAHABZADƏNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANS



Azərbaycan Milli Elmlər Akademiyası və Mahmud Kaşğari adına Beynəlxalq Fondun birgə təşkilatçılığı ilə may ayının 17-19-da Şəki şəhərində unudulmaz Xalq şairi, müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans keçirildi. Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının, Şəki şəhər İcra Hakimiyyətinin rəsmiləri, Türkiyənin və türkdilli ölkələrin Azərbaycandakı səfirləri, "TÜRKPA, TÜRKSOY" və Türk Mədəni İrsi Fondu və digər təşkilatların nümayəndələri, Milli Məclisin bir neçə deputatı, elm adamları, ziyalılar iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli liderin abidəsinə gül dəstələri düzüb, xatirəsinə ehtiramlarını bildiriblər. Konfransın iştirakçıları tədbirin birinci günü Xalq şairi Bəxtiyar Vahabzadənin şəhərin mərkəzindəki parkın ərazisindəki büstünün önünə gəlib, oraya gül dəstələri düzüblər. Sonra qonaqlar şairin ev muzeyini ziyarət ediblər. Tədbir iştirakçıları sonra konfransın keçirildiyi Heydər Əliyev Mərkəzi ilə tanış olublar və konfrans Heydər Əliyev Mərkəzində işinə başlayıb. Konfransı giriş sözü ilə açan Şəki şəhər İcra Hakimiyyətinin Başçısı Elxan Usubov çıxış edərək Prezident İlham Əliyevin Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamına uyğun olaraq Şəki şəhərində silsilə tədbirlərin keçirildiyini bildirib. Elxan Usubov dedi ki, böyük söz ustadı Bəxtiyar Vahabzadə özündən əvvəl 100 illər boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması naminə gözəl əsərlər yaradıb. O, çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına böyük töhfələr verib. Bəxtiyar Vahabzadə özündən əvvəlki böyük ədib və şairlərin işlərini uğurla davam etdirib. İcra Başçısı çıxışında Bəxtiyar Vahabzadənin bir alim kimi də Azərbaycan elmi qarşısındakı xidmətlərindən danışıb, onun əsərlərinin daim elmi ictimaiyyət tərəfindən maraqla qarşılandığını vurğulayıb.

## TÜRKİYƏDƏ BƏXTİYAR VAHABZADƏ ADINA KÜÇƏ (ELAZIĞ)




Bəxtiyar Vahabzadənin adının əbədiləşdirilməsi naminə Türkiyənin Elazıqda Respublika Məhəlləsində bir prospektə Bəxtiyar Vahabzadənin adı verildi.

## TÜRKİYƏDƏ BƏXTİYAR VAHABZADƏ PARKI

## (ANKARA)




Türkiyənin paytaxtı Ankara şəhərində Bəxtiyar Vahabzadə parkı